UOT 371

***Allahyar Süleyman oğlu İmanov***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ADPU-nun Məktəbəqədər təhsil fakültəsinin dekan müavini*

## NİZAMİ GƏNCƏVİNİN ƏSƏRLƏRİNDƏ AİLƏ, ÖVLAD TƏRBİYƏSİ

***Аллахьяр Сулейман оглы Иманов***
*доктор философии по педагогике, доцент*
*заместитель декана факультета дошкольного образования Азербайджанского Государственного Педагогического Университета*

## СЕМЬЯ И ВОСПИТАНИЕ ДЕТЕЙ В ПРОИЗВЕДЕНИЯХ НИЗАМИ ГЯНДЖЕВИ

***Allahyar Suleyman Imanov***
*doctor of philosophy in pedagogy, associate professor*
*deputy dean of the faculty of Preschool education of ADPU*

## FAMILY AND CHILD UPBRINGING IN THE WORKS OF NIZAMI GANJAVI

**Xülasə.** Nizami Gəncəvinin təlim-tərbiyə haqqındakı fikirləri bu günümüz üçün də böyük əhəmiyyət kəsb edir. Xalqımızın milli-mənlik ləyaqətinin təşəkkül tapdığı indiki şəraitdə Nizaminin irsindəki təlim-tərbiyə fikirlərinə istinad etmək, xalqımızın əzəmətli tarixi, kökü olan Şah beytləri əsasında gənc nəsli tərbiyələndirmək, gəncliyin mənəvi aləminə Nizami hikmətlərində nur çiləmək ön planda durmalıdır. O gəncliyi özünə güvənməkdən, yersiz qürurdan, lovğalıqdan uzaq olmağa çağırır, onları təvazökarlığa, qənaətlə yaşamağa dəvət edir. Gəncliyə nikbin bir ruh, həyati gözəllikləri dərindən duymağı, ömrünün xoş çağlarını şad keçirməyi, mənalı ömür sürməyi tövsiyə edirdi.
**Açar sözlər:** *ailə, övlad, təmiz, vicdan, gözəllik, məhəbbət, tərbiyə*

**Резюме.** Взгляды Низами Гянджеви на образование имеют сегодня большое значение. В нынешней ситуации, когда формируется национальное достоинство нашего народа, необходимо обращаться к просветительским идеям наследия Низами, воспитывать подрастающее поколение на основе великой истории и корней нашего народа, проливать свет на мудрость Низами. Он призывает молодёжь избегать самоуверенности, необоснованной гордости и высокомерия, жить скромно и бережливо. Советовал молодёжи быть оптимистичными, почувствовать красоту жизни, насладиться хорошими временами своей жизни, жить осмысленной жизнью.
***Ключевые слова:*** *семья, ребенок, чистый, совесть*, *красота, любовь, воспитание*

**Summary.** Nizami Ganjavi's views on education are of great importance today. In the current situation, when the national dignity of our people is formed, it is necessary to refer to the educational ideas of Nizami's legacy, to educate the younger generation on the basis of the great history and roots of our people, to shed light on Nizami's wisdom. He urges the youth to avoid self-confidence, unreasonable pride, and arrogance, and to live modestly and frugally. An optimistic spirit advised the youth to deeply feel the beauties of life, to enjoy the good times of their lives, to live a meaningful life.
***Keywords:*** *Family, children, clean, conscience, beauty, love, upbringing*

Nizami Gəncəvinin əsərlərində təlim-tərbiyə ənənələri böyük yer tutur. Ümumbəşəri ideyalar tərənnümçüsü olan Nizami pedaqoq olmasa da, pedaqogikaya dair əsər yazmasa da, onun əxlaqi nəsihətləri, valideynlərə, gənclərə, ailə-övlad münasibətlərinə dair poemalarında dəyərli fikirlər söyləmişdir. O yazmış olduğu poemalarında insan mənəviyyatını, əxlaq normalarını gözlənilməsinin və ona əməl edilməsini göstərirdi. Bütün bunları nəzərə almaqla onun əsərlərində ailə, ata-oğul, ana-qız, valideyn-övlad münasibətləri, ata qayğısı, ana qayğısı və

s. məsələlər dururdu. Onun əsas ictimai problemi "Xosrov və Şirin" əsərində göstərilmişdir. Xosrovun timsalında çox kəskin şəkildə qoymuşdur. Nizami bu əsərində ölkənin ədalətli idarə olunmasını, qanun pozanlara, xalqa ziyan yetirənlərin cəzalanmasını əsas sayır.

Nizami Gəncəvi atalar-oğullar, valideynlər-övladlar arasındakı münasibətlərinin mahiyyətini göstərməklə, valideynlər bütün əziyyətlərə, çətinliklərə qatlaşmalıdır ki, onlar övladlarının xoşbəxt, ağıllı, kamallı olmalarının, sağlam böyümələrini arzu edirlər.

Nizami əsərlərində ailə, sevgi məsələlərindən danışarkən nikaha münasibətini bildirmiş, təmiz, namuslu, səmimi, ailəyə yüksək qiymət vermişdir. Nikahı qadınla-kişinin bir-birinə olan məhəbbətini nikahla təsdiq etdikdən sonra ailənin qanunauyğunluğunu qəbul edir. Nikahla qurulmayan ailəni qəbahət sayırdı. Nizaminin "Xosrov və Şirin" poemasında bu məsələləri geniş şəkildə verməklə Şirini yüksək mənəviyyatı, sadəliyi, dostluğu ilə Azərbaycan qadınına məxsus olan bu keyfiyyətləri özündə təcəssüm etdirirdi.

Nizami Gəncəvi ailə-övlad tərbiyəsində "Leyli və Məcnun" əsərində də göstərmişdir. Ailə başçısı ümidini yaradandan üzmür, nəzir-niyaz paylayır. Allah onun naləsini eşidib, ona bir oğul verir. Ata oğlunun tezliklə böyüməsinə sevinir və onu məktəbə qoyur. Məktəbdə oğlunun məhəbbət macərası onu narahat edir. Lakin qəbilənin ağsaqqalları ilə məsləhətləşir. Leylinin atasının yanına elçiliyə gedir. Leylinin atası isə buna razı olmur, cavabında aralarında dostluq, qohumluq olmasına baxmayaraq oğlunu ərköyün böyütmüsən el ona divanə deyir. Bu da bizə tay deyil. Bu sözdən sonra Məcnunun atası çox peşman olur. Oğlunun başqa qızla evlənməsini məsləhət görür, ancaq Məcnun buna razı olmur.

Bununla Məcnun orta əsrlərin saxta baxışlarına, ailə münasibətlərinə meydan oxuyur, məhəbbətin, qarşılıqlı anlaşmanın müqəddəsliyini təsdiq edir.

O yaşadığı dövrün qayda-qanunlarına nifrət edir, belə bir vəziyyətlə barışa bilmir. Məcnunun faciəsi yalnız dövrünün ailə qayda-qanunlarının ənənələrini, məhəbbətin faciəsi olmayıb, müqəddəs insani hisslərin, münasibətlərin, insanlığın faciəsidir.

Nizaminin səmimi və müqəddəs münasibəti "Yeddi gözəl" əsərində də göstərilmişdir. Bu əsərində də ailə-övlad tərbiyəsinə geniş yer vermişdir. Bu əsərdə Bəhramın tərbiyəsinə xüsusi diqqət yetirir, onun həyat salnaməsini poetik təsvir edir. Nizami bu əsərində də öz ideyalarına sadiq qalaraq ailə, nikah məsələlərinə münasibətini bildirir, nikahı birliyin şərti nəsillərin davamlı olduğunu izah edir.

Nizami ailəni cəmiyyətin özəyi, ilkin birliyi hesab edir. O, nikahı zəruri sayır, çünki nikah qarşılıqlı məhəbbətin, anlaşmanın nəticəsidir. Bütün bunların nəticəsi kimi şair cəmiyyətin mənəvi saflıq və əxlaqi kamilliyini ailədə görür, ailə həyatına, ailə münasibətlərinə yüksək qiymət verir.

Nizami zorla, pulla qurulan ailənin əleyhinə çıxır, həqiqi məhəbbətin, ailə səadətin əsaslı olduğunu dönə-dönə qeyd etmişdir. O qeyd edərək deyirdi ki, kişinin pozğunluğu, qadının vəfasızlığı ailənin faciəsidir. Nizami Gəncəvi həyat gözəlliyinin ən böyük mərhələsini bir insanın başqalarına faydalı olmasında görür. Onun fikrincə öz-özünə görmək, dərk etmək, nəfsini gözləmək, başqalarını deyil özünün eyiblərini görmək mənəviyyat və əxlaq normalarıdır.

Nizaminin təlim-tərbiyə haqqındakı fikirləri bu günümüz üçün də böyük əhəmiyyət kəsb edir. Xalqımızın milli-mənlik ləyaqətinin təşəkkül tapdığı indiki şəraitdə Nizaminin irsindəki təlim-tərbiyə fikirlərinə istinad etmək, xalqımızın əzəmətli tarixi, kökü olan Şah beytləri əsasında gənc nəsli tərbiyələndirmək, gəncliyin mənəvi aləminə Nizami hikmətlərində nur çiləmək ön planda durmalıdır.

Şair bütün əsərlərində gəncliyi cəmiyyət üçün yararlı olan bir sənət dalınca getməyə, yaxşı sənətkar olmaq üçün isə bilik kəsb edib hər şeyi kamil bilməyi tövsiyə edir. O gəncliyi özünə güvənməkdən, yersiz qürurdan, lovğalıqdan uzaq olmağa çağırır, onları təvazökarlığa, qənaətlə yaşamağa dəvət edir. Nizami xüsusi ilə övlad tərbiyəsində ailənin rolunu, ata-oğul münasibəti, gəncliyin tərbiyəsi, ata qayğısı və s. ilə əlaqədar maraqlı fikirlərini irəli sürmüşdür. Şair ləyaqətli övladı valideyn üçün böyük səadət hesab etmişdir. Gəncliyə nikbin bir ruh, həyati gözəllikləri dərindən duymağı, ömrünün xoş çağlarını şad keçirməyi, mənalı ömür sürməyi tövsiyə edirdi.

Nizami əsərlərində gəncliyə tövsiyə etdiyi əxlaqi keyfiyyətlərdən biri də nikbinliyə, çətin

anlarda da ümidini itirməməyə, səbirli olmağa, qarşıya çıxan ağır vəziyyətə dəyanət göstərməyə çağırmışdır.

Nizami ailə-övlad tərbiyəsi məsələsində bütün yaradıcılıq boyu insanı ağıllı, kamallı və cəmiyyətə yararlığı ilə müqəddəsləşdirir. O göstərir ki, real həyatda ideal, nöqsansız adam tapmaq çətindir. Tərbiyə işi elə qurulmalıdır ki, uşaqlar kiçik yaşlarından həyatı dərk etməyi bacarsın, valideynlərə qarşı hörmət aşılansın. Nizami göstərir ki, müsbət saydığı insanların da qüsurları olur. Gərək əsl insan həyat üçün zəruri olanları, yoxsulluqları görsün, onlarda hər hansı qüsurları gördükdə onu düzəltmək üçün dostuna, yoldaşına, bütövlükdə insanlara köməklik göstərsin.

Ailə tərbiyəsində Nizami yaşadığı dövrün adamlarının qadınlara münasibətini geniş şəkildə açıqlayaraq mütərəqqi fikirləri xüsusi yer tutur. Nizaminin əsərlərində qadına olan hörməti, övlad tərbiyəsində qadınların rolunu göstərmişdir. Onun “Xosrov və Şirin” poemasında bu öz əksini tapmışdır.

Nizami o dövrün qadınlarına heç də yaxşı qiymət vermirdi. Şair “Xosrov və Şirin” poemasında Məryəmin dili ilə geniş şəkildə açıqlayır. Məryam qəddarlığı özünəməxsus şəkildə xarakterizə edərək deyir. “Qadınlar saxsı qab içinə çəkilmiş reyhan kimidir, beyinləri xəbis, zahirləri isə gözəldir. Heç bir ölkədə qadından, qılıncdan və atdan görünməmişdir. Vəfa kişi sifətidir. Qadınlardan vəfa ummaq olmaz. Qadından kişilik gözləmə. Kişilər çox tədbir tökdülər, baş işlətdilər, ancaq heç biri qadından doğru hərəkət görmədilər. Məryəmin sözü ilə desək, qadınlar palçığın sol tərəfindən yaranıblar. Məryəmin, günüsü ola biləcək Şirinə nifrəti və münasibəti, onun qadınlara nə qədər zülm və əzabı, gərginliyə səbəb olduğunu göstərir.

Nizami saraylarda şaha məxsus toplanan onlarla hərəkətlərin sevgisiz, qul kimi satın alınmalarını göstərir. Saray həyatının mənfi cəhətlərini oxucularına məharətlə çatdırır.

Nizami Şirin obrazı ilə qadınları mərd, qeyrətli, sevgisinə sadiq olan bir qadın obrazı yaradır. Şirin hər cür çətin imtahandan çıxır, əziyyət və əzablara dözür, öz sevgisinə qovuşur. Şirin sevgilisi Xosrovu düşündürərək ata yurdu yağı düşməndən qorumağa çalışır və ona nail olur, Xosrovun mənasız keçirdiyi həyatını dəyişdirir. Xosrov ailə həyatı qurduqdan sonra əxlaqi cəhətləri yüksək bir insan olaraq həyatı anlayır.

Nizami “İsgəndərnamə” poemasında qadına məxsus olan yüksək əxlaqi keyfiyyətləri özündə birləşdirən Nüşabə sürəti yaratmışdır. Nüşabənin gənc olmasına baxmayaraq bacarıqlı və istedadlı bir şah və ayıq bir sərkərdə obrazını vermişdir. Nüşabə və onun xidmətçilərini həyatın ən namuslu qadınları kimi xarakterizə edir.

Şair Nüşabənin simasında işində təmkinli, hissə qapılmayan, hər şeyin yerini bilən ağıllı, kamallı, möhkəm iradəli, işində tələbkar, geniş dünyagörüşə malik, nəfsinə hakim və sair müsbət keyfiyyətləri özündə birləşdirən bir müsbət qadın sürətini yaratmışdır. Bu müsbət keyfiyyətlərin çoxu İsgəndər elçi gəldiyi zaman aydın olmuşdur.

Nizami ailə, övlad tərbiyəsində ailənin düzgün qurulmasında hər iki tərəfin saf, təmiz, namuslu, isмətli olmanın əsərlərində geniş yer verir. Qadının ailə qurmasında bunların mühüm rolunu göstərir. Lakin Nizami İsgəndərin dili ilə sübut etməyə çalışır ki qadının çox möhkəm və namuslu olduğunu göstərməklə deyir ki, polad kimi möhkəm olsa belə o yenə qadındır, ona çox arxayın olmaq olmaz. Ona görə hər gəlin, hər qız ismətli, namuslu olmaq üçün üzüörtülü olmalı və üzünü yalnız ərinə göstərməlidir. Nizami əsərlərində çox haqlı və yerli olaraq, namus, ismət, həya hissinə hakim olduğu təbliğ və təqdir edir. Məsələn: “ismət və namus sənin gözəlliyinin qoruyucusudur. Sən əl dəyməmiş ağıllı, ağzı möhürlü bir xəzinəsən”.

**Problemin elmi yeniliyi:** Bu məqalədə Nizami Gəncəvinin əsərlərində ailə, övlad tərbiyəsinin əhəmiyyəti araşdırılmış, dahi mütəfəkkirin irsindəki təlim-tərbiyə fikirlərinə istinad etməyin əhəmiyyəti və həlli yolları göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti:** Məqalədə irəli sürülən təkliflər və nəticələr vasitəsi ilə istər valideynlər, istərsə də müəllimlər ailənin, övlad tərbiyəsinin müvəffəqiyyətlə həyata keçirilməsinə nail ola bilər.

**Problemin aktuallığı:** Dahi şair və böyük tərbiyəçi olan N. Gəncəvi təhsil, təlim, tərbiyənin bir sıra ümumi məsələləri haqqında elə dəyərli fikir və ideyalar irəli sürmüşdür ki, bu gün də öz əhəmiyyətini itirməmişdir. Bütün bu prosesləri nəzərə alaraq Nizami Gəncəvinin əsərlərində ailə, övlad tərbiyəsi bu və ya digər şəkildə tədqiq edilsə də, bu sahədə işlərin təşkili öyrənilməmiş, ümumiyyətlə açıq qalmışdır. Apardığımız tədqiqat bu problemin öyrənilməsinə və həlli yollarının araşdırılmasına həsr edilmişdir.

**Ədəbiyyat:**
1. Azadə, R. N. Gəncəvi / R.N. Azadə. – Bakı: Elm, -1970.
2. Azərbaycan Sovet Ensiklopediyası. II cild. -Bakı, -1979.
3. Quliyev, S.M. Nizami Gəncəvinin yaradıcılığında əxlaq tərbiyəsi / S.M. Quliyev. -Bakı, -1994.
4. Quliyev, S.M. Nizami dünyası və müasir dövr / S.M. Quliyev. – Gənclik, Bakı, -1999.
5. Məmməd, Cəfər Nizaminin fikir dünyası / Məmməd Cəfər. -Bakı, -1982.

**E-mail:** alik1957x@gmail.com
**Rəyçilər:** *ped.ü.elm.dok*., *prof.* **Ş.Q. Əliyeva**
*ped.ü.fəls.dok., dos.* **Y.T. Rzayeva**

**Redaksiyaya daxil olub:** 24.05.2021